Tarix yazan oğullar

# İki müharibənin qəhrəmanı

**İki il öncə, 2020-ci ilin 27 sentyabrında Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzü Vətən müharibəsinin başlanmasına səbəb oldu. Elə o gündən mərdürəkli, aslanbiləkli oğullarımız 30 illik nisgilə son qoymaq üçün silaha sarıldılar.**

O zaman döyüşə yollananların ürəyində intiqam, gözündə yurd həsrəti vardı. Bir də ki Vətən sevgisindən uca heç nə yox idi. Geridə qoyduqlarını Allaha, dövlətə əmanət edərək Vətənə sipər olmağa getdilər.



İgidlərimiz yalnız bir şey barədə düşünürdülər - 30 ildə vətən uğrunda canından keçmiş oğullarımızın qisasını almaq, işğal altında olan, illərlə həsrətini çəkdiyimiz torpaqlarımızı düşməndən geri almaq və lazım gəldiyi anda bu yolda canını fəda etmək! Belə qəhrəman oğullardan biri də 4-cü Ordu Korpusunun sabiq artilleriya rəisi, ehtiyatda olan polkovnik-leytenant Xeyrulla İbrahimov idi.

İsmayıllı rayonunun Basqal qəsəbəsində dünyaya gələn Xeyrulla İbrahimov Birinci Qarabağ müharibəsinin iştirkçısı idi. O, hələ Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə qəhrəmanlıq göstərərək yaralanmışdı.

Xeyrulla İbrahimov 2003-cü il iyunun 24-də Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasında göstərdiyi xüsusi xidmətlərinə əsasən, "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdu. Üç il ardıcıl olaraq "Azərbaycanın ən yaxşı zabiti" adına layiq görülmüşdü.

Xeyrulla İbrahimovu orduda hamı "Kobra" ləqəbi ilə tanıyırdı. Müharibə vaxtı göstərdiyi misilsiz şücaətlərdən qorxuya düşən ermənilər hələ Birinci Qarabağ savaşında onun qətli üçün pul mükafatı ayırsalar da, niyyətlərinə çata bilməmişdilər. Hərbi hissə komandiri vəzifəsinə qədər ucalan X.İbrahimov həm də xidmət etdiyi bölmənin artilleriya rəisi idi. Təqaüdə çıxdıqdan sonra da ürəyi qisas hissi ilə döyünürdü. Peşəkar zabit kimi müharibənin başlanılacağı günü səbirsizliklə gözləyirdi. İnanırdı ki, həmin gün mütləq gələcək.

2020-ci ilin iyul ayında düşmənin Tovuz rayonuna təcavüzü nəticəsində general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin şəhid olması hamı kimi Xeyrulla İbrahimovu da sarsıtdı. Vətən müharibəsi başlayanda anasız qalmış 2 övladını Allaha əmanət edərək könüllü olaraq ön cəbhəyə yollandı. Vətənin çağırışına hay verən Vətən oğlunu keçmiş döyüş yoldaşları da sevinclə qarşıladılar...

Xeyrulla İbrahimov o yerlərə qarış-qarış bələd idi. Erməni mövqelərini yaxşı tanıyırdı. Onun bütün silahlardan çox yüksək səviyyədə istifadə etmək bacarığı da var idi. Artilleriya taktikasını çox gözəl bilirdi. Planlaşdırdığı artilleriya zərbələrindən düşmən qaçıb canını qurtara bilmirdi. X.İbrahimovun komandirliyi ilə açılan sərrast atəşlə düşmən mövqeləri darmadağın olurdu.

Oğlunun doğum günündə X.İbrahimov ailəsi ilə telefon vasitəsilə əlaqə saxlayır. Döyüş yoldaşları onun çox gərgin olduğunu hiss edirlər. Həmişə ailə üzvlərinə qarşı diqqəti, mehribanlığı ilə seçilən ata nədənsə oğlunun doğum gününü təbrik etmir...

Elə həmin gün, oktyabrın 26-da Şuşa ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. İndi Xeyrulla İbrahimovun Şəhidlər xiyabanındakı məzarı hərbçi yoldaşlarının, vətəni sevən insanların and yerinə çevrilib.

Vətən müharibəsində göstərdiyi misilsiz şücaətlərinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni, "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub, vaxtilə yaşadığı binaya memorial xatirə lövhəsi vurulub.

Vətən müharibəsində qəhrəmancasına döyüşüb, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin ruhları işğaldan azad etdikləri torpaqlarda gedən abadlıq, tikinti, bərpa və quruculuq işlərini görüb şad olurlar.

Bu gün artıq məcburi köçkünlər doğma yurdlarına qayıtmağa başlayıblar. Zəngilanın Ağalı kəndində "ağıllı kənd" layihəsi reallaşdırılıb və vaxtilə torpaqlarından didərgin düşmüş şəxslər orada məskunlaşıblar. Böyük qayıdışın ilk hissəsi tamamlanmaqdadır. Beləliklə, vaxtilə mənfur düşmənin işğalı ilə yurdlarını tərk etməyə məcbur olmuş soydaşlarımız canı-qanı bahasına torpaqlarımızı azad edən igidlərimiz sayəsində öz evlərinə dönürlər.

Şəhidlərimizin hər biri qəhrəmanlıq nümunəsi göstərərək sübut etdilər ki, igidlər təkcə nağıllarda olmur. Xalqımızın qəhrəmanlıq tarixini yenidən yazan igidlərdən biri də Xeyrulla ibrahimov oldu. Vətəni sevən və vətənin bir parçası olan şəhidlərimiz qürur yerimizdir.

*Nuridə ƏLİZADƏ*

Azərbaycan.- 2022.- 27 oktyabr.- S.10.